**Hörmətli Vahid müəllim**,

Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 30 illiyi münasibətilə Sizi və Auditorlar Palatasının bütün kollektivini səmimi-qəlbdən təbrik edirəm.

Ulu Öndər Heydər Əliyevin imzaladığı "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən formalaşan və 1996-cı ildən fəaliyyət göstərən Auditorlar Palatası ötən 30 il ərzində ölkəmizdə milli audit sisteminin formalaşması, onun institusional və normativ-hüquqi əsaslarının yaradılması, beynəlxalq standartlara uyğun inkişafı, şəffaflıq və hesabatlılığın gücləndirilməsi istiqamətində mühüm və əhəmiyyətli fəaliyyət göstərmişdir. Bu dövr ərzində audit xidmətlərinin həcminin və əhatə dairəsinin genişlənməsi, auditor peşəsinin nüfuzunun yüksəlməsi Auditorlar Palatasının məqsədyönlü və ardıcıl fəaliyyətinin bariz nəticəsidir.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin proqram xarakterli göstərişləri əsasında audit sisteminin modernləşdirilməsi, beynəlxalq audit standartlarının tətbiqi, rəqəmsallaşma proseslərinin təşviqi və audit institutunun beynəlxalq aləmə inteqrasiyası istiqamətində Auditorlar Palatası tərəfindən görülən işlər xüsusi qeyd olunmalıdır. Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və (Avropanın Mühasiblər və Auditorlar Federasiyası) EFAA kimi nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına üzvlüyü, çoxsaylı xarici peşəkar təşkilatlarla əməkdaşlığı ölkənin audit sisteminin beynəlxalq etibarlılığının və tanınmasının göstəricisidir.

Bundan başqa, Palatanın antikorrupsiya mühitinin gücləndirilməsi, maliyyə və vergi intizamının möhkəmləndirilməsi, dövlət proqramlarının icrasına töhfə verilməsi, maarifləndirmə və elmi-praktiki fəaliyyətinin miqyası yüksək qiymətləndirilməlidir. Nəşr olunan çoxsaylı elmi-metodik materiallar, dərsliklər, milli audit standartları, keçirilən beynəlxalq konfrans və seminarlar auditor peşəsinin intellektual əsaslarının möhkəmlənməsinə mühüm töhfə vermişdir.

Əminəm ki, zəngin təcrübəyə, möhkəm institusional bazaya və peşəkar kadrlara malik Auditorlar Palatası bundan sonrakı fəaliyyətində də ölkəmizdə şəffaflığın və hesabatlılığın artırılmasına, müasir və dayanıqlı audit institutunun inkişafına mühüm töhfələr verəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə başda Auditorlar Palatasının sədri iqtisad elmləri doktoru, professor Vahid Novruzov olmaqla, bütün kollektivə uğurlar, möhkəm cansağlığı və davamlı nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

**İqtisadi İslahatların Təhlili**
**və Kommunikasiya**
**Mərkəzinin icraçı direktoru** **i.e.d., prof. Vüsal Qasımlı**